

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 oktyabr 2024-cü il №78 (2889) https://mod.gov.az Qiyməti 30 qəpik


## Müstəqillik tariximizin misilsiz Zəfəri



XX əsrin sonlarında regionda baş verən geosiyasi hadisələrin fonunda Azərbaycanın öz müstəqilliyini bərpa etməsi üçün münbit şərait yaranmışdı. Təqvimimizdə öz mötəbərliyi ilə seçilən tarix olan 18 oktyabr günü 1991-ci ildən Azərbaycan xalqı üçün əlamətdar gün - Müstəqilliyin Bərpası Günü olaraq əbədiləşdi. Qalib ölkəmizin müstəqilliyə doğru getdiyi yolda 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olndu. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinə istinad olunmuş, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Bununla da "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsasən Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etmişdir. Bununla da Azərbaycan yenidən öz müstəqilliyini əldə etdi. Müsəlman şərqində ilk demokratik, hüquqi dövlətini quran xalqımız bu tarixi ilə öyünür və müxtəlif meyilli hegemon qüvvələrin təsiri və təzyiqinə sinə gərərək, bir əsrdə ikinci dəfə müstəqilliyini bərpa edən xalq olaraq bu təqvimlə qürur duyur. Məlumat üçün qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə imzalanmış sənədlə 15 oktyabr 2021-ci il tarixli Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, 28 May - Respublika Gününün adı dəyişdirilərək Müstəqillik Günü, 18 Oktyabr - Dövlət Müstəqilliyi Gününün adı dəyişdirilərək Müstəqilliyin Bərpası Günü elan edilmişdir. Həmin şanlı tarixdən artıq 33 il keçir və bu gün xalqımız suveren və bütöv Azərbaycanımızın vətəndaşı olaraq bu günü keçirir, uzun və keşməkeşli tarixin növbəti ildönümünü qeyd edir. Müstəqilliyi əldə etmək çətindirsə, onu qoruyub saxlamaq daha da çətindir. Müstəqilliyimizi bərpa etdikdən bu günümüzə qədər azadlığımız, müstəqilliyimiz uğrunda minlərlə can qurban olub. Bunun üçün də layiqli vətəndaş olaraq hər birimiz ərazi bütövlüyümüz, müstəqilliyimiz və suverenliyimiz uğrunda canından keçən Vətən övladı şəhidlərimizin ruhlarını daim ehtiramla yad etməli, gələcəyimizin memarı olan gəncləri qəhrəman oğullarımızın adına layiq böyütməli və Vətənimizi layiqincə qorumalıyıq.

18 oktyabr təqviminin ümdəliyini dərk etmək üçün onun hansı dövrə və geosiyasi mühitə təsadüf etdiyinə nəzər salmaq lazımdır. Belə ki, Ermənistanın ölkəmizə qarşı başla(t)dığı torpaq iddiasından irəli gələn savaş, bunun nəticəsində minlərlə soydaşımızın qaçqın və məcburi köçkünlüyə məruz qalması, həmçinin hələ özünü tam doğrultmamış iqtisadi vəziyyət, ölkə hakimiyyətindəki səriştəsizlik dövlətimizin müstəqilliyinin qorunması yolunda ciddi maneə idi. Xalqın yekdilliklə hakimiyyətə dəvət etdiyi Dahi Rəhbər Heydər Əliyevin gəlişindən sonra müstəqilliyimizin qorunub saxlanması və dövlətimizin hər bir sahədə inkişafının təmin olunmasına nail olundu. Xalqımızda dövlətçilik, vətənpərvərlik, özünəinam keyfiyyətləri və bununla da gələcəyə inam hissləri artmağa başladı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində görülən təxirəsalınmaz işlər və zəruri islahatlar nəticəsində iqtisadi, siyasi, hərbi və sosial sahələrdə irəliləyişlər əldə olundu. Müstəqilliyimizi əbədi və dönməz edən Dahi Şəxsiyyət Heydər Əliyev öz zəngin siyasi təcrübəsi, yüksək Vətən sevgisi, xalq təəssübkeşliyi ilə ölkəmizin həm dayaq sütunlarının möhkəmləndirilməsi, həm də daxili və xarici siyasətinin düzgün təşkil olunması, iqtisadi gücün dövrün tələblərinə uyğun qurulması, dövlətin təhlükəsizliyinin qarantı olan ordunun formalaşması işlərinə böyük diqqət ayırırdı. Fundamenti humanizm dəyərlərinə, ədalət prinsipinə və sülhə söykənən xarici siyasət yürütmək müstəqilliyimizi bərpa etdikdən sonra dövlətimizin qarşıya qoyduğu və vacib bildiyi məsələlərdən biri, hətta birincisi olub. Qısa müddətdə böyük yol qət etmiş Azərbaycan XXI əsrin əvvəllərində Heydər Əliyev kimi dahi rəhbərin siyasi kursunun layiqli davamçısı olan və bu gün dünyanın Müzəffər Ali Baş Komandan kimi tanıdığı İlham Əliyevlə yolunu davam etdirdi. Əsl lider, bacarıqlı diplomat, Müzəffər Ali Baş Komandan və digər çoxsaylı müsbət keyfiyyətləri özündə birləşdirən dövlət başçımız hakimiyyət dövründə milli maraqları, xalqın mənafeyini düşünərək, sağlam sosial mühitin formalaşması üçün çalışır və əlindən gələni əsirgəmir. Məlumdur ki, Ulu Öndər Heydər Əliyevin və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dövlətimizin inkişafı üçün gördüyü işləri sadalamaqda sözlər belə kifayətsizdir. 30 ilə yaxın Ermənistan silahlı birləşmələrinin işğalında qalmış tarixi ərazilərimiz məhz Qalib sərkərdə İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuz tərəfindən azad olundu. Məhz dövlət başçısının qətiyyəti, iradəsi və yüksək bacarığı nəticəsində müstəqillik yolumuz tarixi Zəfərlə taclandı. 2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror əməliyyatı ilə Azərbaycan torpağında qeyri-qanuni erməni silahlı birləşmələri darmadağın olundu. Bununla da tarixi ərazilərimizdə qondarma rejimin, separatçı qüvvələrin kökü kəsildi. Bu gün Azərbaycanımızın hər bir bölgəsində şanlı üçrəngli bayrağımız dalğalanır. Ötən ilin 15 oktyabrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk dəfə qədirbilən xalqı tərəfindən prezident seçilməsinin 20-ci ildönümündə Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Həmin tarixi mötəbər günün bu il birinci ildönümüdür. Ali Baş Komandan Xankəndi şəhərində çıxış edərkən vurğuladı: "Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır".

Bu gün işğaldan azad olunan əbədi və əzəli torpaqlarımızda ay-ulduzlu bayrağımızın dalğalanması müstəqilliyimizin əbədi, dönməz olduğunun göstəricisidir. Xalqımız öz tarixi ilə öyünür, tarixi isə böyük şəxsiyyətlər və qəhrəmanlar yazırlar. Bizim yazılmış tariximizin adı Dəmir Yumruqdur. Çünki bu tarix xalq-ordu-dövlət birliyi ilə yazılıb!

**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunda İntellektual qabiliyyətli bölmələr yaradılıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan islahatlar çərçivəsində Azərbaycan Ordusunda İntellektual qabiliyyətli bölmələr yaradılıb.

Müdafiə Nazirliyi xəbər verir ki, təhsildə fərqlənən istedadlı gənclərin bilik və bacarıqlarından daha səmərəli faydalanmaq, eyni zamanda, onların karyera inkişafına töhfə vermək məqsədilə Müdafiə Nazirliyində hərbi xidmətkeçmə ilə bağlı yeni konsepsiya tətbiq edilir.

Yeni təlim-təcrübə konsepsiyasına əsasən, hərbi xidmətdə olan yüksək intellektə malik istedadlı çağırışçılar gənc əsgərlərin hazırlığı proqramını başa çatdırdıqdan sonra öz ixtisaslarına uyğun müxtəlif layihələrə və fəaliyyətlərə cəlb olunmaları məqsədilə hərbi xidmətlərini Milli Müdafiə Universitetinin tərkibində yaradılmış bölmələrdə xüsusi şəraitdə davam etdirəcəklər.

Yeni yaradılan İntellektual qabiliyyətli bölmələrdə Dövlət İmtahan Mərkəzinin ali təhsil müəssisələrinə qəbul imtahanından 600 və yuxarı bal toplamış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş "Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası"nın şərtlərinə uyğun olan qaliblər, həmçinin cari təqvim ilindən əvvəlki təqvim ilinin nəticələrinə görə beynəlxalq reytinqi ("Times Higher Education (THE) World University Rankings" və ya "Academic Ranking of World Universities" (Shanghai)) 500-cü yerdən aşağı olmayan sırada yer alan xarici ali təhsil müəssisəsinin bakalavriat və ya magistratura proqramlarının məzunları olan çağırışçılar xidmət edəcəklər.

Göstərilən kateqoriya üzrə müddətli həqiqi hərbi xidmətə çağırılmış gənclərdən informasiya texnologiyaları sahəsində müvafiq ixtisasa sahib olanlar orduda rəqəmsal bacarıqların inkişafına və yeni imkanların yaradılmasına əhəmiyyətli töhfə verəcəkdir.

Müasir texnologiyaları və yanaşmaları tətbiq edə biləcək mühüm bacarıqlara malik insan kapitalının formalaşdırılmasının ölkəmiz üçün əhəmiyyəti nəzərə alınaraq, xüsusi istedadlı gənclərin həqiqi hərbi xidmət müddətində öz peşə sahələri üzrə faydalı iş təcrübəsi qazanmaları təmin ediləcəkdir.

# General-polkovnik Zakir Həsənov: “Hərbi gücümüzün və döyüş imkanımızın artırılması, eləcə də peşəkar kadr hazırlığı başlıca məqsədimizdir”

*Oktyabrın 12-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, videobağlantı formatında keçirilən müşavirəyə nazir müavinləri, qoşun (qüvvə) növü komandanları və müavinləri, Əlahiddə Ümumqoşun Ordunun rəhbər heyəti, baş idarə, idarə rəisləri, hərbi birlik və birləşmə komandirləri, həmçinin Milli Müdafiə Universitetinin və tabeliyində olan xüsusi təyinatlı təhsil müəssisələrinin rektorları cəlb olunublar.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi naminə şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları çatdırıb.

Ali Baş Komandanın yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında və digər çıxışlarında səsləndirdiyi fikirləri müşavirə iştirakçılarının diqqətinə çatdıran müdafiə naziri hərbi gücümüzün və döyüş imkanımızın artırılmasının, eləcə də peşəkar kadr hazırlığının başlıca məqsədimiz olduğunu xüsusi vurğulayıb. Nazir qoşunların xidməti-döyüş fəaliyyətində dövlət başçısının fikirlərindən irəli gələn tapşırıqların icrasının daim diqqət mərkəzində saxlanmasının əhəmiyyətini qeyd edib.

Müşavirədə şərti sərhəddə əməliyyat şəraiti və qoşunlarda bölmələrin gündəlik fəaliyyəti təhlil edilib, mövcud vəziyyətlə bağlı məruzələr dinlənilib.

Müdafiə naziri qoşunların döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, ayıq-sayıqlığın artırılması, eləcə də revanşist qüvvələrin şərti sərhəddə ehtimal olunan bütün təxribatlarına qarşı preventiv tədbirlərin görülməsinə hazır olmaqla bağlı aidiyyəti üzrə konkret tapşırıqlar verib.

General-polkovnik Zakir Həsənov cari ilin 24-26 sentyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin təşkilatçılığını, ölkəmizdə və digər qabaqcıl dövlətlərdə istehsal edilən müasir silah-texnika nümunələrinin stendlərdə nümayiş etdirilməsini yüksək qiymətləndirib.

Azərbaycan Ordusunun arsenalına daxil edilən yeni silah, texnika və hava hücum vasitələrinin imkanlarının, düzgün istismarının, həmçinin gecə və gündüz şəraitində effektiv döyüş tətbiqinin keçirilən təlimlərdə dərindən öyrənilməsinin əsas tələblərdən biri olduğu müşavirə iştirakçılarının nəzərinə çatdırılıb.

Hərbi hissələrdə qoşun xidmətinin effektiv təşkili, digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyətdə ərazilərimizin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, kəskin relyef və sərt iqlim şəraitində yerləşən mövqelərin mühəndis-istehkam cəhətdən yaxşılaşdırılmasının, təminat yollarının daim işlək vəziyyətdə saxlanılmasının vacibliyi vurğulanıb.

Dövlət rəhbərliyinin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğunu qeyd edən nazir, xüsusilə qış dövründə bölmələrin maddi-texniki və tibb təminatı məsələlərinə diqqət yetirilməsinin zəruriliyini bildirib.

Sonda mütəmadi olaraq müxtəlif mövzularda maarifləndirici tədbirlərin keçirilməsi, şəxsi heyət tərəfindən təhlükəsizlik və nizam-intizam qaydalarına riayət edilməsi, təlim-tədris və təhsil prosesində keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması barədə əlavə göstərişlər verilib.

# “Hərbi əməliyyatların idarə olunmasında beynəlxalq qaydalar üzrə yüksək səviyyəli seminar” başa çatıb





Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən "Hərbi əməliyyatların idarə olunmasında beynəlxalq qaydalar üzrə yüksək səviyyəli seminar" (SWIRMO) başa çatıb.

Müdafiə Nazirliyi xəbər verir ki, sonuncu gündə yekun müzakirələr aparılıb və seminarın təhlili həyata keçirilib.

BQXK-nın əhəmiyyətli tədbirlərindən biri hesab olunan, 70-dən çox ölkədən yüksək rütbəli zabitlərin iştirak etdiyi seminarın bağlanış mərasimində iştirakçılara sertifikatlar təqdim olunub.

Qeyd edək ki, seminarın keçirilməsində məqsəd hərbi əməliyyatların idarə olunmasına dair beynəlxalq qaydaların anlaşılmasını dərinləşdirmək, müasir döyüş meydanında beynəlxalq humanitar hüququn tətbiqi ilə bağlı problemləri araşdırmaq, eləcə də hüququn hərbi planlaşdırma, əməliyyatların aparılması və əxlaqi dəyərlərin gücləndirilməsinə inteqrasiyasını, həmçinin eyni məkanda çalışan hərbçilərlə BQXK arasında qarşılıqlı anlaşmanı inkişaf etdirməkdir.

# HHQ-nin aviasiya vasitələri təlim-məşq uçuşlarını icra edib



Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş təyyarələri hazırlıq planına uyğun olaraq, təlim-məşq uçuşlarını icra edib.

Müdafiə Nazirliyi xəbər verir ki, Aviasiya vasitələrinin uçuşları müəyyən edilmiş marşrutlar üzrə yerinə yetirilib. Hərbi pilotlar tərəfindən qalxma və enmə, aşağı, eləcə də orta hündürlükdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra olunub.

Hərbi qulluqçuların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə keçirilən məşqlər zamanı hərbi pilotlar yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Raket və artilleriya bölmələrində atəş tapşırıqları icra olunub

*2024-cü ilin hazırlıq planına uyğun olaraq, Quru Qoşunlarının raket və artilleriya bölmələrində atəş tapşırıqları icra olunub.*



Müdafiə Nazirliyi xəbər verir ki, plana əsasən, atəş dəstəyi həyata keçirəcək bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq atəş mövqelərini tutublar.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə şərti düşmən hədəflərinin aşkar olunaraq sərrast atəşlə məhv edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Təlimin keçirilməsində əsas məqsəd raket və artilleriya bölmələrində komandirlərin idarəetmə vərdişlərinin təkmilləşdirilməsi, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, eləcə də döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı əlaqənin inkişaf etdirilməsidir.



## Döyüş hazırlığı

# “Heyətimiz hər bir tapşırığın öhdəsindən bacarıqla gəlir”

Düşmən işğalından azad olunmuş Vətən torpaqlarında qürurla xidmət edən əsgərlərlə görüşüb həmsöhbət olanda xoş ovqata kökləndik. Həmişə arzuladığımız, lakin gedib çıxa bilmədiyimiz doğma Vətənimizin bir hissəsinə - Xankəndiyə gəldik. İlk gəlişimizdə şəhərlə bağlı olduqca xoş hisslər yaşadıq. Torpaqlarımız azad ediləndən sonra burada başlanan bərpa-quruculuq işlərini görmək adamın ürəyini dağa döndərir. Yeni yolların çəkilməsi, binaların tikilməsi, parkların salınması, bir sözlə, bütün quruculuq işləri sürətlə davam edir. Bu mənzərəni seyr edə-edə hərbi hissəyə çatdıq.

Kapitan Hümbət Cəfərovla görüşüb əsgərlərin məşğələ yerinə yollandıq. Tank əleyhinə qurğunun heyəti ilə dərs yerində görüşdük. Heyət komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Səxavət Ağayev uzun müddətdir ordu sıralarında xidmət edir. Qusar rayonunun Çubuqçu kəndində anadan olan Səxavət həm Aprel döyüşlərinin, həm Vətən müharibəsinin, həm də Azərbaycan Ordusu tərəfindən keçirilən antiterror əməliyyatının iştirakçısı olub. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə döyüşlərdəki xidmətlərinə görə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunub.

Çavuş S.Ağayev dedi ki, tank əleyhinə dəzgahlı qumbaraatan qurğusunun bütün incəliklərini öyrənib. Bu gün də qarşısında duran ən mühüm vəzifə ona və heyətə təhkim olunan bu silahı lazım olan anda məharətlə istifadə edə bilməsidir. 44 günlük Vətən müharibəsinin və suverenliyimizin tam bərpa olunması ilə başa çatan antiterror əməliyyatının iştirakçısı olmaqdan ikiqat qürurlandığını da vurğuladı.

Əsgər Şamil Şamxalov Ağstafa rayonundan hərbi xidmətə çağırılıb. Ordu sıralarından tərxis olunmağına az qalıb. O da 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatının iştirakçısı olub və bu döyüşlərdə iştirakından qürur duyduğunu bildirdi.

Heyət üzvlərindən Mihal Bayramov və Sədi Məmmədov işğaldan azad edilmiş ərazilərdə xidmət etməkdən məmnun qaldıqlarını bildirdilər. Onlara təhkim olunan tank əleyhinə dəzgahlı qumbaraatandan söz düşəndə Sədi dedi ki, bu silah haqqında ilk dəfə hərbi xidmət dövründə eşidib. Onun taktiki-texniki xüsusiyyətlərini biləndən sonra silah haqqında öyrənməyə marağı daha da artıb.

- Bu silah haqqında kifayət qədər bilik və bacarıqlara yiyələnmişəm. Praktiki atış çalışması zamanı hədəfi dəqiq nişan almaqla məhv etməyi bacarırıq. Bu silah həm də kollektiv tərəfindən istifadə olunduğu üçün heyət üzvlərinin hamısı öz üzərinə düşən vəzifəni vaxtında dəqiq yerinə yetirməlidir ki, müsbət nəticə əldə edə bilək. Heyətimiz hər bir tapşırığın öhdəsindən uğurla gəlməyi bacaran heyətdir", - əsgər



S.Məmmədov dedi.

Tank əleyhinə dəzgahlı qumbaraatanın heyət üzvlərinin məşğələ yerindən xoş ovqatla ayrıldıq. Onların düşüncələri, çalışqanlıqları və Vətənə necə bağlı olduqlarını əməli fəaliyyətlərində də gördük.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

## Gənc zabitlərimiz

# “Zabit olmaq ən böyük arzum idi”



- Kəndimizdə Azərbaycan Ordusunun iki hərbi hissəsi yerləşirdi. Böyüklərimizdən eşitmişəm ki, Birinci Qarabağ müharibəsi zamanı kəndimizin əli silah tutan bütün gəncləri könüllü olaraq torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərə atılmışdılar. Atam da onların sırasında olub. Dayılarım, əmilərim də döyüşüblər. Gözümü açıb hərbi geyimli insanlar, hərbi maşınlar, hərbi texnikalar görmüşəm. Mülki insanların - kənd camaatının yaşadığı ərazidə çoxlu sayda hərbi qulluqçuların olduğunu görməyə artıq alışmışdıq. Hələ kiçik yaşlarımdan kənd uşaqları ilə birlikdə hərbi maşın, hərbçi görəndə "Vətən məni yetişdirib bu əllərə yolladı, bu torpağa qurban deyib Allaha ismarladı. Marş irəli! Marş irəli!" marşını oxuyurduq. Belə bir mühitdə böyüdüm, tərbiyə aldım. Bütün bu gördüklərim, şahidi olduqlarım həyatımın ən xoş xatirələridir. "Mən də hərbi forma geyinəcəm", - deyib kiçik yaşlarımdan qürurlandığım müqəddəs və olduqca şərəfli hərb sənətini seçdim. Bu sənəti bütün varlığımla sevdim. Hər zaman hərbi formanı geyinəndə qürur dolu anlar yaşayıram, - kapitan Aqil Kazımov dedi.

Aqil Adil oğlu Kazımov 15 mart 1994-cü ildə Ağstafa rayonunun Koçvəlili kəndində doğulub boya-başa çatıb. Aqil evin tək oğul övladı olmasına baxmayaraq, valideynləri onun arzusuna qarşı çıxmayıblar. Əksinə, onun hərb peşəsinə dərindən yiyələnməsinə dəstək olublar. 2009-2012-ci illərdə sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təqdim edib və qəbul olub. 2012-2016-cı illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) "Motoatıcı" ixtisası üzrə bitirib və xidmətə başlayıb.

44 günlük Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı yaşayış məntəqələrinin azad olunmasında, eləcə də Azərbaycan Ordusu tərəfindən 2023-cü ilin 19-20 sentyabr tarixlərində icra olunan antiterror əməliyyatında iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə kapitan Aqil Adil oğlu Kazımov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb.

Aqil iki oğul atasıdır. "Zabit olmaq ən böyük arzum idi", - deyə o qeyd etdi.

- Çox istəyirəm ki, övladlarım da peşəmin davamçısı olsunlar. Doğma Vətənimizi sevərək, torpağa bağlı gənc kimi yetişsinlər. Şəhidlərimizin qanı, canı bahasına azad olunmuş ərazilərimizdə xidmət edərək Azərbaycanımızın ərazi bütövlüyünü, suverenliyini qorusunlar.

Bu gün düşmən işğalından azad edilmiş ərazilərimizdə xoşbəxt, firavan, qayğısız övladlarımız böyüyürlər. Valideynləri onları bağçaya, məktəbə yola salırlar. Xalqımızın dinc, sakit, müharibəsiz, top, güllə səsi eşidilməyən yaşayışı artıq təmin olunub.

Xalqımıza bu sevinci bəxş edən rəşadətli Azərbaycan Ordusunun sıralarında xidmət etməkdən qürur duyuram.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Tibb xidməti

# “Hərbi həkim olmaq ikiqat məsuliyyətdir”

Bütün peşələr müqəddəsdir. Peşəni müqəddəs edən ona sevərək yiyələnən insanlardır. Peşə haqqında çox deyilib. Belə bir deyim də var: “Çörəyi ver çörəkçiyə birini də artıq”. Tibb xidməti leytenantı Nurəli Qasımlı da şərəfli peşə sahiblərindəndir. "N" hərbi hissəsində həmsöhbət olduğum mayor Namiq Əzizov bildirdi ki, Nurəli gənc olsa da, öz işini sevən, işinin öhdəsindən bacarıqla gələn hərbi həkimdir.

- Tibb xidməti leytenantı Nurəli Qasımlı bir ildir ki, hərbi hissənin tibb məntəqəsində xidmət edir. Tibb məntəqəsinə səhhəti ilə bağlı müraciət edən hərbi qulluqçuları ciddi müayinə edir, müalicəyə ehtiyacı olanları müvafiq qaydada hospitala təxliyə edir, digər hərbi qulluqçulara isə sağlamlığını qorumaqla bağlı öz tövsiyələrini verir. Onun öz işinə ciddi yanaşması nəticəsində hərbi hissəmizdə xəstələrin sayı demək olar ki, yox səviyyəsindədir, - mayor Namiq Əzizov dedi.



Tibb məntəqəsinə gəlib tibb xidməti leytenantı Nurəli Çingiz oğlu Qasımlı ilə görüşdük. Nurəli ağbəniz, ucaboy gəncdir. Qısa tanışlıqdan sonra məlum oldu ki, Nurəli Beyləqan rayonunun Şəfəq kəndindəndir. Orta məktəbi əla qiymətlərlə bitirib. Uşaqlıq illərindən hərbi həkim olmaq ən böyük arzusu idi. Onu bu peşəyə sövq edən əmisi oğlu Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Ramiz Qasımov olub. Vətənin keşiyində dayanmaq hər bir Vətən oğlunun müqəddəs borcudur, - Nurəli dedi. O da öz övladlıq borcunu həkim kimi əsgərlərin sağlamlığının keşiyində dayanmaqla ödəmək istəyib. Bu məqsədlə də orta məktəbi bitirəndən sonra sənədlərini Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə verib. 633 balla tələbə adını qazanıb. Tələbə olduğu illərdə də yaxşı oxuyub, bacarıqlı həkim olmağı qarşısına məqsəd qoyub, bu amal uğrunda addım-addım irəliləyib. Həmsöhbətim dedi ki, boş vaxtım olanda tibbə aid kitablar oxuyur, dərsləri mütaliə edirəm. Bu da öz növbəsində işin keyfiyyətli olmasına çox kömək edir. Belə ki, Urologiya sahəsi üzrə ixtisaslaşmaq istəyir. Bu sahəyə bütün diqqətini cəmləyərək rezidenturaya hazırlaşır.

Tibb xidməti leytenantı Nurəli Qasımlının başlıca məqsədi rezidentura təhsilini qardaş Türkiyədə almaqdır.

Nurəli bildirdi ki, hazırda xidmət etdiyi hərbi hissədə az sayda əsgəri kəskin respirator xəstəliyi diaqnozu ilə müraciət edir. “Bu da mövsümi xəstəlikdir. Bölmələrdə bu xəstəliyin yayılmasının qarşısını almaq məqsədilə əsaslı tədbirlər görülür. Aparılan qabaqlayıcı tədbirlər də öz bəhrəsini verir. Əsgərlərin istirahət etdikləri yerlər, yataqxanalar, yeməkxana, həmçinin açıq və qapalı yerlərə baxış keçirilir və mütəmadi olaraq dezinfeksiya işləri aparılır.

Hərbi həkim olmaq ikiqat məsuliyyətdir. Üzərimə götürdüyüm bu məsuliyyətin öhdəsindən gəlməyə daim çalışacağam”, - tibb xidməti leytenantı Nurəli Qasımlı dedi.

**Bəxtiyar ƏLİYEV**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# "Şuşadan gedəndə dedim ki, nə olursa olsun, yenidən qayıdacağam"

***Müsahibimiz Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük xidmətlər göstərən, ölkəmizin ən ağır və faciəvi günlərində, taleyüklü anlarında xalqımızın yanında olan, birinci və ikinci Qarabağ müharibəsində, eləcə də tarixi zəfərdən sonrakı dövrlərdə erməni vandalizmini və terrorçuluğunu ifşa edən, eləcə də Azərbaycanın təbiətini, adət-ənənələrini və mədəniyyətini təbliğ edən fotoların müəllifi tanınmış azərbaycanlı fotoqraf Reza Deqatidir.***

**- Reza bəy, əvvəlcə sizi Vətənimizin müdafiəsində dayanan hərbçilərimizə tanıdaq.**

- Reza Deqati Təbriz uşağıdır. Təbriz kəlməsində bütün Azərbaycan, onun mədəniyyəti və tarixi var.

**- Necə oldu ki, sizi dünyada məşhur edən bu sahəni seçdiniz?**

- Uşaqlıqdan Təbrizdə məni maraqlandıran bir sual var idi - görəsən, elə bir dil varmı ki, bütün insanlar bu dil vasitəsilə bir-birini başa düşsün. Düşündüm ki, bu elə bir dil olmalıdır ki, dünyanın bütün ölkələrində yaşayan xalqlar bunu anlaya bilsin, bu da mümkün deyildi. Nəhayət, bu dilin ancaq foto ola biləcəyini başa düşdüm. Və 60 il əvvəl Təbrizdə öz peşəmi seçdim - gördüyüm hadisələri fotonun dili ilə insanlara göstərməyə başladım. Əslində, həmin dövrdə foto çəkmək peşə sayılmırdı. Buna görə mən də memarlıq oxudum. Fotoya olan marağım isə heç vaxt azalmadı, işləyirdim, amma fotoaparatım həmişə yanımda olurdu. 1979-cu ildə İranda inqilab başlayanda düşündüm ki, bu hadisələri bir fotoqraf kimi lentə almalıyam. Həmin hadisələri, baş verənləri çəkməyə başladım. Beləcə, zaman ötdü və anladım ki, mənim memarlığa marağım yoxdur, mən fotoqraf olmalıyam.

**- Reza bəy, doğulub boya-başa çatdığınız İrandan Parisə getmək məcburiyyətində qalmısınız. Həyatınızda baş verən bu hadisəni necə xatırlayırsınız?**

- İranda siyasi burulğanlar qopanda universitetə gedib xahiş etmişdim ki, mənə üç günlük icazə versinlər. Məqsədim isə mitinqlərin, nümayişlərin fotosunu çəkmək idi. Onlara da demişdim ki, işlərimi yekunlaşdırıb qayıdacağam. Elə həmin üç günlük icazə mənim həyatımı dəyişdi. İcazə aldığım üç gündən artıq 43 il keçib.

Və sonra yavaş-yavaş dünyanı gəzdim. İşimin, çəkdiyim fotoların dəyərli olduğunu anlayırdım. İnsanlar fotolarıma heyranlıqla baxırdılar. Hətta inanmırdılar ki, onları mən sadə bir fotoaparatla çəkmişəm. Deyirdilər ola bilməz, çünki onlar böyük ustalıqla çəkilib. Qeyd edim ki, o dövrdə lentə aldığım fotolardan biri 20 mindən çox qəzetdə yayımlanıb.

1981-ci ildə İranı tərk edəndə artıq tanınmış bir adam idim. Həmin dövrdə mədəniyyət və media sahələrində çalışanlara, incəsənət adamlarına hər kəs hörmət edirdi.

Fransaya getdikdən sonra bu ölkənin mədəniyyət naziri ilə görüşdüm və mənə vətəndaşlıq verildi. O vaxtdan Parisdə yaşayıram. Amma deyə bilərəm ki, ilin doqquz ayını Parisdə olmuram.

**- Dünya ictimaiyyətinin başa düşdüyü ortaq bir dili - foto dilini kəşf etmisiniz. Bu haqda danışardınız...**

- Bilirsiniz, mən çoxlu sərgilər keçirmişəm. Bu günə qədər 360-dan çox sərgim olub. Dünyanın bir çox ölkələrində - Çində, Yaponiyada, Afrikada, Fransada, İngiltərədə, Banqladeşdə, Hindistanda və s. Bu ölkələrdəki insanlara bir dil lazım idi. O dil nə ingilis, nə Çin, nə türk, nə də fransız dili idi. O dil ancaq şəklin dili ola bilərdi.

Çəkdiyim, lentə aldığım fotolar bu insanlarda eyni emosiyalar yaradıb. Beləliklə, dünyanın hər yerində insanların başa düşdükləri ortaq bir dili - şəkil dilini özüm üçün kəşf etdim.

**- 43 ildir ki, Fransada yaşayırsınız, lakin ürəyiniz Azərbaycanla döyünür, Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırırsınız. Bu, çətin olmur ki?**

- Düzdü, mənim qanım Azərbaycan qanıdır, Təbrizdə azərbaycanlı ailəsində dünyaya göz açmışam. Amma nə olursa olsun, dünya səviyyəsində peşəkar jurnalistsənsə, gərək tərəf saxlamayasan. Çünki sənin dediyin söz - çəkdiyin foto həqiqətdir.

Bitərəf olmaq məsələsini belə izah edim. Hər ilin 9 ayını mən səfərlərdə oluram. Səfərlər deyəndə səyahət kimi nəzərdə tutmayın. Yerləri əvvəlcədən özüm müəyyənləşdirib seçirəm. Hansı ki, həmin yerlərdə tərəfsiz, həqiqəti deyənlərə ehtiyac var.





Məni Azərbaycana bağlayan faktorlardan biri də məhz budur. Həqiqətləri dünyaya çatdırmaq... Hansı ki, 20 Yanvar faciəsi və 26 Fevral - Xocalı soyqırımı zamanı Azərbaycanın səsini dünyaya çatdırmaq lazım idi. Çətinliklə olsa da, gəldim və hadisələri lentə aldım. Hər iki hadisədə gördüm ki, dünya bu hadisələrə demək olar ki, laqeyd yanaşır. Yəni, bir millətin başına



bu cür müsibətlər gəlir, amma dünya mediası bunları tamam başqa cür göstərir.

Dünya mediasında azərbaycanlıları qatil kimi qələmə verirdilər. Halbuki, əslində, tamam əksi baş verirdi. Bu məsələlər məni Azərbaycana gəlməyə sövq etdi və öz-özümə dedim ki, Reza, sən Azərbaycanın haqlı səsini bütün dünyaya çatdırmalısan.

Hərbi qulluqçu düşmənlə üzbəüz vuruşmalı olduğu kimi, jurnalist də informasiya müharibəsində mübarizə aparmalıdır. Azərbaycanla Ermənistan arasında informasiya müharibəsinin ən qaynar nöqtəsi Fransa idi. Və mən 30 ildir ki, orada bu informasiya müharibəsini aparıram.

**- Birinci Qarabağ və 44 günlük Vətən müharibəsində fotolar lentə almısınız. Müharibənin heç bir anı unudulmur. Bəs sizin yaddaşınıza əbədi həkk olunan hansı hadisələr varmı?**

- Bir fotoqraf, jurnalist olaraq həmişə fikirləşmişəm ki, olduğum yerlərdə nələrisə öyrənməliyəm. Heç vaxt bir yerə dünyaşöhrətli fotoqraf kimi getməmişəm. Hər zaman çalışmışam ki, getdiyim yerlərdə insanların hekayələrini öyrənim və dünyaya çatdırım. Lentə aldığım 2 milyon foto var ki, hər biri bir hekayədir. Amma Qarabağ məsələsində bir neçə mövzu var ki, heç vaxt mənim yaddaşımdan çıxmayacaq.

Bilirsiniz, insanların beynini bir mövzu ilə nə qədər doldursalar da, həqiqəti görən insan dəyişə bilər. Bunu mən Birinci Qarabağ müharibəsində gördüm. Xocalı soyqırımı törədiləndə Fransadan bir tona yaxın dərman göndərmişdilər ki, bunları aparıb Xankəndidə ermənilərə versinlər.

Mən o dərmanları gətirən fransızlarla söhbət edəndə gördüm ki, mediada yazılanlara aldanıblar, onlar da azərbaycanlıların erməniləri öldürməsinə inanırlar.

Qərara gəldim ki, onlara qoşulub Ağdama gedim. Ağdama çatanda onlar gətirdikləri dərmanları Xankəndiyə çatdırmaq üçün müraciət etdilər. Amma müharibə gedirdi, yol bağlı idi. Onlara dedilər ki, bir gün burada qalın, ermənilərlə əlaqə saxlayaq, sizin gəldiyiniz barədə xəbər verək.

Azərbaycan tərəfi hər zaman olduğu kimi, yenə də humanist davrandı - Xankəndiyə dərman aparılmasına icazə verdi, amma bildirildi ki, gərək ermənilər də buna razılıq versinlər. Onda mən qərara gəldim ki, fransızlara həqiqəti göstərim. Və belə də etdim. Erməni vəhşiliklərini çəkdim. Fransızlar bu kadrları görəndə dəhşətə gəldilər. Baş verən hadisələri öz gözləri ilə görmək istədilər. Onlara ermənilərin azərbaycanlıların başına açdıqları müsibətləri, işgəncələri göstərdik. Onlar bunu öz gözləri ilə görəndən sonra mənə təşəkkürlərini bildirdilər və gətirdikləri dərmanların hamısını Ağdam xəstəxanasına



təhvil verib öz ölkələrinə qayıtdılar. Fransaya qayıdıb Azərbaycanda baş verən qanlı hadisələr barədə həqiqəti söyləmək, yazmaq qərarına gəldilər. Onda başa düşdüm ki, insanların beynini yanlış məlumatlarla doldursalar da, onlar öz gözləri ilə görəndə fikirlərindən dönürlər. Mənim çəkdiyim fotolar bir növ bu hadisələrin şahididir. Həmişə çalışmışam ki, fotolarımı elə çəkim ki, baxan insanlar özləri orada hiss etsinlər.

Unuda bilmədiyim ikinci bir məqam isə bir erməni əsgərinin mənə dediyi "azərbaycanlını görəndə onun əvvəl gözlərini çıxardır, sonra öldürürük" sözləri idi. Bu mövzu mənə çox ağır gəlmişdi.

**- Reza bəy, göz çıxartmaq məsələsini ermənilərin özləri sizə deyib?**

- O vaxt Allahverdi Bağırovla birgə Ağdamda idim, Allah ona rəhmət eləsin! Bir gün o mənə dedi ki, Reza bəy, bizim ermənilərlə Əsgəran yolunda görüşümüz olacaq. Əsirləri mübadilə etmək üçün razılığa gəlmişik. Gəlin gedək ora, amma siz fransızca danışın. Mən sizi fransız fotoqrafı kimi təqdim edəcəyəm. Görüş baş tutdu. Ermənistan tərəfindən bir neçə əsgər və jurnalist gəlmişdi. Elə bir şərait yarandı ki, mən fransızca danışa-danışa onlara tərəf yaxınlaşdım. Erməni əsgərlərindən biri mənə dedi ki, siz fransızsınız? Dedim, bəli. O yaxınlaşdı mənə və dedi ki, mən də fransızam və buraya döyüşməyə gəlmişəm.

Soruşdum ki, sən təksən, yoxsa başqaları da var. Cavabında dedi ki, ermənilərə kömək məqsədilə Fransadan və digər ölkələrdən yüzlərlə döyüşçü gəlib.

Əsirlər artıq mübadilə olunmuşdu. Həmin vaxt əsgərlərdən biri mənə cibindəki çay qaşığını göstərdi. Dedim ki, siz niyə çay qaşığını cibinizdə gəzdirirsiniz? O, gülüb dedi ki, biz azərbaycanlı görəndə birinci onun gözünü çıxardırıq. Geri qayıdanda Allahverdi Bağırova erməni əsgərinin mənə dediklərini söylədim. O isə cavabında dedi ki, Reza bəy, düz deyir, onlar bizim insanların başına müsibətlər gətirirlər. Mən, əslində, bir millətin bu qədər vəhşi olmağına inanmırdım. Lakin iki gün sonra Qırmızı Xaç Komitəsi tərəfindən meyitlər gətirilmişdi ki, onlardan birinin gözü yox idi. Həkimlər dedilər ki, bu adamın diri-diri gözünü çıxardıblar. Əgər öldürüb sonra gözünü çıxartsaydılar, gözündən bu qədər qan gəlməzdi. Və onda erməni əsgərinin dediyinin acı bir həqiqət olduğunu tam başa düşdüm.

Mən Azərbaycanda bu hadisələr baş verənə qədər artıq 12 il idi ki, dünyanın başqa müharibələrini görür və çəkirdim. Amma bu qədər qəddarlıq və vəhşilik görməmişdim. Necə ola bilər ki, illərdir bir yerdə yaşayasan, bir yerdə böyüyəsən, sənə qucaq açmış, suyunu-çörəyini vermiş bir millətə qarşı bu qədər vəhşilik edəsən.

**(Ardı 5-ci səhifədə)**

# “Şuşadan gedəndə dedim ki, nə olursa olsun, yenidən qayıdacağam”




(Əvvəli 4-cü səhifədə)

Azərbaycan əsgərinin mərhəməti, erməni əsgərinin vəhşiliyi...

Bəli, bu barədə bir xatirəmi sizlə bölmək istərəm. Bir dəfə də Kəlbəcər rayonunun Zod istiqamətində çətin relyefli şəraitdə döyüş növbətçiliyi aparan əsgərləri lentə almaq qərarına gəldim və ora getdim. Döyüş növbətçiliyində məğrur Azərbaycan əsgəri dayanmışdı. Qarşı tərəflə məsafə 20 metr olmazdı bəlkə. Mən onun fotolarını çəkdim, sonra ona dedim ki, aşağı düş, səni orada da çəkim. Lakin əsgər aşağı düşmədi, dedi ki, Reza bəy, mən burada sizin yanınızda qalacam. Özümə də pis təsir etdi ki, mən bu soyuqda onun şəklini çəkməyə gəlmişəm, amma o da mənim sözümə qulaq asmır.

Aşağı düşəndən sonra əsgərdən soruşdum ki, niyə icazə vermədiniz ki, sizin şəklinizi aşağıda da çəkim? Cavabı hələ də mənim qulağımdadı. Dedi ki, bilirsiniz, Reza bəy, orada ermənilər bizimlə çox yaxın məsafədədirlər. Siz də biz azərbaycanlılar üçün önəmli insansınız, bizim həqiqətləri dünyaya çatdırırsınız. Düşündüm ki, birdən sizi tanıyarlar, təxribat törətməyə cəhd edərlər. Ona görə də sizin arxanızda olmaq istədim ki, birdən atəş açsalar, sizə heç nə olmasın. Əsgər bu sözü deyəndə, doğrudan da, məni ağlamaq tutdu.

**- Reza bəy, 2 milyondan çox foto çəkmisiniz. Bu fotolar arasında hansılar həyatınızda bir iz qoyub?**

- Bütün fotolar mənim həyatımda bir iz qoyub. Mən fotoların yarısını ağlaya-ağlaya çəkmişəm. Afrikada bir şəkil çəkmişdim. İki qəbilə - Ruanda və Burundi arasında müharibə gedirdi. 6 ayda 800 min nəfər öldürülmüşdü. Özü də bilirsiniz necə - dəmirlə, bıçaqla, oxla. Təsəvvür edin ki, insanlar qaçıb kilsədə gizlənirdilər. Gəlib kilsəni bağlayıb od vururdular. Heç vaxt yadımdan çıxmaz, orada bir kişi var idi, hansı ki, onun bütün ailəsini gözünün qabağında öldürmüşdülər. Eynisini 1992-ci ilin fevralında Ağdamda görmüşdüm. Xocalıdan gələn bir kişi 4 gün idi ki, eyni yerdə oturmuşdu, deyərdim ki, tərpənmirdi də. Əlində bir foto, oğlunu axtarırdı. O qədər ağlamışdı ki, gözləri qurumuşdu. Hər iki hadisə mənə çox təsir etmişdi.

**- 20 Yanvar hadisələrini necə xatırlayırsınız? O vaxt Azərbaycana çox böyük çətinliklə gəlmisiniz.**

- Mən həmişə haqqın tərəfində olmuşam, insanların haqq səsini ucaltmışam. 20 Yanvar hadisələri də eyni mövzudur. Hadisələr baş verən zaman mən Parisdə idim. Yanvarın 21-i dostlarımın biri mənə xəbər verdi ki, Azərbaycanda belə bir hadisə baş verib, amma xarici jurnalistləri Bakıya gəlməyə qoymurlar. Mən özümü dərhal Moskvaya çatdırdım. Moskvada Azərbaycan evi var idi və mən orada azərbaycanlılarla tanış oldum. Onlardan xahiş etdim ki, mənə kömək edin, Bakıya getməliyəm. Bir yol tapdılar və qatar ilə 48 saata Moskvadan Bakıya gəldim. Gələn kimi dərhal xəstəxanaya getdim və gizlincə orada olan yaralıları çəkdim. Həmin fotoları dərc etdirib bütün dünyanı 20 Yanvar hadisələri barədə agah etdim.

20 Yanvar hadisələri zamanı bir səhnə var idi ki, o da mənim yaddaşımdan heç vaxt silinməyəcək. Həmin ərəfədə mən Şəhidlər xiyabanında dəfn mərasimini çəkirdim. Bir yaşlı qadın var idi ki, oğlunu dəfn edəndən sonra məzarın üstündə ağlaya-ağlaya insanları səsləyirdi. Dedikləri hələ də qulağımdadı. “Məni tək qoymayın, məni də övladımın yanında dəfn edin". Hər dəfə Şəhidlər xiyabanına gedəndə həmin qadını xatırlayıram.

**- Ermənilər təkcə insanlığa yox, həm də tarixi abidələrə qarşı da vəhşiliklər törədiblər. Bunların şahidi olmusunuzmu?**

- Mən erməni vəhşiliklərini, vandalizm aktlarını Birinci Qarabağ müharibəsi zamanı çox görmüşdüm, Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərə gedəndə eyni mənzərənin şahidi oldum - ermənilər yenə də vəhşiliklərə əl atmışdılar. Hadisə yerindən çəkdiyim fotolar bunu bir daha sübut edir.

Onlar 90-cı illərin əvvələrində etdikləri vəhşiliklərdən əl çəkməmişdilər, bunu 2020-ci ilə qədər gətirib çıxarmışdılar. Məscidlərdə donuz saxlayırmış, məzarları qəsdən, məqsədyönlü şəkildə dağıtmışdılar.

**- Birinci Qarabağ müharibəsində Şuşaya çətinliklə getmisiniz və oranı tərk edən sonuncu şəxslərdən olmusunuz. O zaman işğal olunmuş Şuşadan necə çıxa bildiniz?**

- Müharibə dövründə mən Füzuli, Cəbrayıl və Laçında şəkillər çəkirdim. Amma bir şəhər ağlımda var idi ki, o şəhərin adını eşidəndə Bülbülü, Üzeyir Hacıbəylini, Xan Şuşinskini xatırlayırdıq. O şəhər Şuşa idi. Mən ora getmək qərarına gəldim. Daşaltıya çatanda dedilər ki, yol bağlıdır və Şuşa mühasirədədir. Həmin vaxtlar çox ağır döyüşlər gedirdi. Özüm-özümə dedim ki, bura kimi gəlmişəm, geriyə qayıtmayacağam. Mənə dedilər ki, bir yol var, Daşaltı tərəfindən keçib İsa bulağına çıxır. Amma həmin yolu snayperlər izləyirlər. Və mən həmin yolla üzü Şuşa istiqamətinə getməyə başladım. Erməni snayperi üç dəfə məni vurmağa cəhd göstərdi. Birinci güllləsi papağıma dəydi, ikincisi sağ qulağımı cızdı, üçüncüsü isə iki ayağımın ortasından torpağa girdi. Çətinliklə də olsa, özümü Şuşaya çatdırdım. Orada özünümüdafiə batalyonları Şuşanın müdafiəsində dayanmışdılar. Və həmin batalyonların iki nəfər komandiri var idi - birinin adı Tofiq idi ki, o, idman müəllimi idi. İkincisi Ramazan Qəmbərov idi. O da müəllim idi. Şuşanın müdafiəsində dayanan insanlar qorxmaz və ürəkli idilər, amma bilirdim ki, müharibə ürəklə, qorxmazlıq-




la aparılmır, silah-sursat və texnika lazımdır ki, onların da heç biri yoxdur. Bir neçə gündən sonra gördüm ki, yavaş-yavaş Şuşadan getməliyəm. Burada qalsam, ermənilər məni tutacaq, lentə aldığım fotoları götürəcəklər. O fotolar ki, orada Xocalı soyqırımı var idi, döyüşçülər də var idi. Mən baş verənləri dünyaya çatdırmalı idim. Həmin gün Rasim Yusufov və Ramazan Qəmbərovla birlikdə Şuşada sonuncu dəfə çayımızı içdik. Çünki düşünürdüm ki, bizim mədəniyyətimizdə çay içmək çörək kəsmək kimidir. Bilmirdim qayıdanda mənim başıma nə iş gələcək, onların taleyi necə olacaq. Amma gedəndə onlara dedim ki, nə olursa olsun, mən yenidən qayıdacağam. Eyni yoldan qayıtdım, yenə də snayper mənə atəş açdı, xoşbəxtlikdən bu dəfə də güllə mənə tuş gəlmədi.

**- İllər sonra arzunuz reallaşdı və Şuşaya yenidən qayıtdınız.**

- Bəli, qayıtdım. Rəşadətli Azərbaycan Ordusunun sayəsində qayıtdım. Bu xoşbəxtliyi onlara borcluyam. 2020-ci ildə, Vətən müharibəsində Şuşa azad olundu. Mən




də sözümün üstündə dayandım və ilk jurnalist kimi Şuşaya qayıtdım və Azərbaycan əsgərləri ilə çayımı içdim.

**- Şuşa azad olundu və İkinci Qarabağ müharibəsi tarixi zəfərimizlə başa çatdı. Qalib ordumuzun döyüş hazırlığı, qəhrəman əsgərlərimizin döyüş ruhu haqqında fikirləriniz? Əminik ki, oxucularımız üçün maraqlı olar.**

- Dünyanın bir çox ölkələrində baş verən müharibələrin, hərbi əməliyyatların şahidi olmuşam. Həmçinin Birinci və İkinci Qarabağ müharibələrini öz gözümlə görmüşəm. Birinci Qarabağ müharibəsində Azərbaycanda ordu demək olar ki, yox idi. Amma Vətən müharibəsində güclü, müasir bir ordu var idi. Deyə bilərəm ki, bəlkə də dünyanın ən güclü ordularından biridir Müzəffər Azərbaycan Ordusu. Xüsusən də, Şuşa əməliyyatını qeyd etmək istərdim. Azərbaycan əsgəri Şuşanı azad edərək, dünya hərb tarixinə qalibiyyət salnaməsini həkk etdi. Sonra mən əsgərlərlə görüşdüm. Gördüm ki, bu əsgərlər təkcə fiziki cəhətdən hazırlıqlı deyillər, həm də mənəvi-psixoloji cəhətdən yüksək hazırlığa malik idilər. Azərbaycan əsgəri bu müharibəyə çox yaxşı hazırlaşmışdı. Və ən əsası bu müharibədə mən gördüm ki, ordu vahid mərkəzdən idarə olunur. Şahidi olduğum digər müharibələrdə mən görmüşdüm ki, orduya 3 nəfər rəhbərlik edir. Onlardan biri nizami, biri siyasi, digəri isə informasiya rəhbəri. Azərbaycanda isə bütün bunların hər üçünü də bir nəfər aparırdı - Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev. Və o, bütün dünyaya bir daha özünün siyasi gücünü, liderlik qabiliyyətini tam şəkildə göstərdi.

**- Reza bəy, bildiyimiz kimi, siz Fransanın "Şevalye" medalı ilə təltif olunmusunuz. Bəs Azərbaycan tərəfdən Sizə hansısa medal təqdim olunubmu?**

- Bəli, təqdim olunub. Ümumiyyətlə, mənə müxtəlif ölkələrdən çoxlu medallar və mükafatlar təqdim olunub. Bunların arasında "Dostluq" medalının xüsusi yeri var. Bu medal mənə iki il bundan əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən verilib. Bir sözlə, "Dostluq" medalı mənim üçün çox dəyərlidir. Azərbaycanda hamı mənə doğma, yaxın bir insan kimi yanaşır və bu, məni çox sevindirir. O zaman düşünürəm ki, bu medal xalqın sevgisinin təcəssümüdü.

**- Bu yaxınlarda Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində kommunikasiya sahəsində fəaliyyət göstərən şəxsi heyətlə görüşünüz baş tutdu. Yəqin ki, məlumatınız var, müharibə vaxtı kadrların çoxunu həmin heyət çəkmişdi. Təəssüratınız necə oldu?**

- Mən nazirliyin kommunikasiya sahəsində fəaliyyət göstərən şəxsi heyət ilə görüşdə entuziazm, öz işinə böyük həvəs və müsbət enerjini hiss etdim. Hər birinin öz işinin peşəkarı olduğuna əminəm. Çünki müharibə kadrlarının hər birini izləmişəm. Ümid edirəm ki, bundan sonrakı fəaliyyətləri uğurlu olar və bu cür görüşlər davamlı şəkildə öz bəhrəsini verər.

**- Azərbaycan əsgərinə sözünüz...**

- Bilirsiniz, mən bir çox müharibənin canlı şahidi olmuşam, amma, əslində, təbiətcə sülhsevər insanam, sülh müxbiriyəm. İstəyirəm ki, dünya sülh şəkilləri ilə dolsun. İnsanlar görsünlər ki, müharibə heç də yaxşı deyil. Sülh adamı, sülh müxbiri olaraq, bir şeyi xüsusi vurğulamaq istəyirəm - Azərbaycan xalqının özgənin torpağında gözü yoxdur. Azərbaycan əsgəri öz tarixi torpaqlarını işğaldan azad etdi və bu gün həmin torpaqlarda müqəddəs vəzifəsini uğurla yerinə yetirir.

**- Müsahibə üçün təşəkkür edirik.**

- Çox sağ olun.

**Mayor
Ceyhun CƏFƏRLİ,
baş leytenant
Elçin İMANOV
"Azərbaycan Ordusu"**

# Şəhid döyüşçü Ayxan Cəfərovun xatirəsi anılıb



Hərb Tarixi Muzeyində şəhid Ayxan Cəfərova həsr olunmuş "Vətən sizi unutmaz" adlı anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə Ayxan Cəfərovun həyatı və döyüş yolu barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, o, 1996-cı il sentyabrın 6-da Cəlilabad rayonunun Üçtəpə kəndində anadan olub. 2015-ci ilin iyulunda hərbi xidmətə gedən Ayxan həmin müddətdə kəşfiyyatçı ixtisası üzrə tam kurs keçib. 2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olub. Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl rayonlarının azad edilməsi uğrunda döyüşlərdə iştirak edib. Oktyabrın 15-də düşmənlə üzbəüz döyüş zamanı şəhid olub. Oktyabrın 17-də doğma kəndində torpağa tapşırılıb.

Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.



Tədbirdə ehtiyatda olan mayor Rahib Misirzadə, şəhidin döyüş yoldaşları Elnur Talıbov və başqaları çıxış ediblər.

Ayxanın valideynləri Cəmaləddin və Fəxmirə Cəfərovlar, xalası Şəfiqə Əsədova onunla bağlı xatirələrini bölüşüblər.

Sonra şəhid haqqında videoçarx nümayiş edilib.

Anım mərasiminin iştirakçıları şəhidə həsr olunmuş sərgi ilə tanış olublar.

# Ermənistanın şərti sərhəddə davranışları cəmiyyətimiz tərəfindən birmənalı şəkildə təxribat kimi dəyərləndirilir

***"Ermənistan əhalisinin taleyi regiondankənar qüvvələrin oyunları və bölgədə maraqlar uğrunda gedən mübarizənin bəhanəsidir. Nümunə olaraq deyə bilərəm ki, bir neçə gün əvvəl Ermənistanda yerləşdirilən Avropa İttifaqının müşahidəçi missiyası Gorus rayonu ərazisində şərti dövlət sərhədinə gəlib və xüsusi vasitələrlə Azərbaycan Ordusunun mövqelərini müşahidə edir, foto və ya video çəkilişlər aparırlar. Onların şərti sərhəddə davranışları cəmiyyətimiz tərəfindən birmənalı şəkildə təxribat kimi dəyərləndirilir".***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan polkovnik-leytenant, hərbi jurnalist İsa İsmayılov deyib.

O qeyd edib ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdıqdan sonra Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə bitsə də, bölgədə gərginlik səngimir: "Buna səbəb Ermənistanda revanşist qüvvələrin fəallığı və "sülh müqaviləsi istəyən" qonşu dövlətin, yumşaq desək, səmimiyyətdən uzaq və qeyri-adekvat davranışıdır. Eyni zamanda, Azərbaycan tərəfinin çoxsaylı sülh çağırışlarına Ermənistanın biganəliyi və danışıqları müxtəlif bəhanələrlə uzatması da regionda dayanıqlı sülhün təmin olunmasına maneə yaradır. Həmçinin regiondankənar qüvvələrin pozucu fəaliyyəti, xüsusilə də Fransanın Ermənistanı silahlandırması da bölgədə sülh prosesinə real təhdiddir desək, yanılmarıq. Bir tərəfdən regiondankənar qüvvələrin təhrikindən qidalanan revanşist qüvvələr, digər tərəfdən isə Ermənistanın dövlət səviyyəsində məsuliyyətsiz davranışı Qafqazda vəziyyətin gərgin olaraq qalmasına rəvac verir.




Artıq uzun müddətdir ki, Avropa İttifaqının "mülki missiya" adı altında Ermənistan ərazisində yerləşən bəzi dırnaqarası mütəxəssislərinin fəaliyyəti diqqət çəkir. Şübhəsiz ki, Cənubi Qafqaz kimi strateji cəhətdən vacib və əhəmiyyətli regionda çoxdan arzu olunan davamlı sülhün bərqərar olunması prosesi istiqamətində Azərbaycanı və onun haqlı mövqeyini dəstəkləyən ölkələrin fəaliyyəti daim diqqət mərkəzindədir. Ermənistanın hərbi-siyasi rəhbərliyinin qeyri-adekvat davranışı isə sülh prosesinə əngəl törətməklə yanaşı, həm də beynəlxalq qurumlara hörmətsizliyin nümayişidir".

Ehtiyatda olan zabitin fikrincə, son bir neçə ay ərzində baş verənlərdən belə bir nəticəyə gəlmək olar ki, Ermənistan rəhbərliyi nə ordusunu idarə edə bilir, nə də erməni cəmiyyətində olan revanşist xülyalı təbəqəyə təsir etmək gücünə malik deyil. Hökumət ya bu proseslərə nəzarət etmir, ya da bilərəkdən revanşistlərə meydan verir.

Hərbi jurnalist qeyd edib ki, Vətən müharibəsindən ötən dövr ərzində Ermənistan dövlətinin davranışı və dövlət rəsmilərinin bir-birinə zidd açıqlamalar verməsi daha çox diqqət çəkən məqamdır: "Son 4 il ərzində Fransadan və digər ölkələrdən daxil olan silahların əsasən hücum xarakterli olması tərəfimizdən təhdid və növbəti təxribatlara zəmin olaraq dəyərləndirilir. Əminəm ki, bu məqamlar nəzərə alınır, təhdid və təxribatların qarşısının alınması üçün dövlətimiz tərəfindən ciddi tədbirlər görülür.

Ermənistan tərəfi şərti dövlət sərhədinin bütün istiqamətlərində böyük mühəndis-istehkam işləri aparır. Bununla bağlı foto və video materiallar ictimailəşdirilib və düşünürəm ki, beynəlxalq qurumlara da təqdim edilib. Belə ki, Ermənistan tərəfi mövqeləri möhkəmləndirir, yeni, uzunmüddətli atəş nöqtələri və digər fortifikasiya qurğuları yaradır. Sadəcə müdafiə deyil, həmçinin hücum məqsədli möhkəmləndirilmiş döyüş mövqeləri inşa edir, əldə etdiyi hücum silahlarının böyük bir hissəsini şərti sərhədə yaxın ərazilərdə yerləşdirir.

Qarşı tərəf bütün bunları guya yalnız müdafiə məqsədilə etdiyini iddia etsə də, heç bir beynəlxalq qurum buna təminat verə bilməz. Vətən müharibəsi zamanı döyüş bölgəsindən xeyli uzaq məsafədə yerləşən şəhər və kəndlərimizi raket-artilleriya zərbələri ilə darmadağın edən, mülki sakinlərimizi qətlə yetirən Ermənistan beynəlxalq hüququn norma və prinsiplərinə hörmət etmədiyini artıq sübut edib. Qarşı tərəfin təxribatları yeni döyüş toqquşmalarına səbəb ola bilər. Hadisələrin təhlili onu göstərir ki, sülhməramlı proseslərə mane olmaq üçün ermənilər növbəti təxribatlara ciddi hazırlıq görür.

Təəssüf doğuran odur ki, bütün bu proseslər Avropa İttifaqının müşahidəçi missiyasının gözü qarşısında baş verir. Eyni zamanda, dünyanın aparıcı dövlətləri və qurumları tərəfindən buna reaksiya verilmir, ədalətli mövqeyimizi dəstəkləyən və Ermənistanı beynəlxalq qanunlara zidd əməllərdən çəkinməyə çağıran, qınayan açıqlamalar səsləndirilmir. Bu isə ikili standartlar çərçivəsində yanaşmanın təzahürüdür".

Ehtiyatda olan zabit vurğulayıb ki, Ermənistan hərbi siyasi rəhbərliyi müxtəlif planlar cızaraq, hətta təxribat xarakterli məlumatlar yaymaqla bölgəyə daha çox diqqət cəlb etməyə can atır: "Görünən odur ki, nə regiondankənar qüvvələrin, nə də onların dəstəyindən "qidalanıb cəsarətlənən" revanşist təbəqə üçün sadə ermənilərin taleyi, gələcək firavan və təhlükəsiz həyatı maraqlı deyil. Sadə Ermənistan əhalisinin taleyi regiondankənar qüvvələrin oyunları və bölgədə maraqlar uğrunda gedən mübarizədə bir bəhanədir.

Ermənistan tərəfinin Azərbaycanın irəli sürdüyü sülh təkliflərinin icrasını ləngitməsinin, sülh müqaviləsinin imzalanmasını süni şəkildə gecikdirməsinin və bəzi beynəlxalq qurumlardan vasitə kimi istifadə etməyə çalışmasının arxasında ermənilərin məkrli planlarının, hər hansı növbəti bir hiyləsinin olduğu qənaətinə gəlmək olar.

Bütün bunlara baxmayaraq, Azərbaycan tərəfinin mövqeyi bəllidir, qətidir, ədalətlidir, səmimidir. Azərbaycan tezliklə sülh müqaviləsinin imzalanmasında, sərhədlərin, ərazi bütövlüyünün qarşılıqlı tanınmasında maraqlıdır. Çünki sülhün bərqərar olması nəticəsində gərginlik səngiyəcək, kommunikasiyalar açılacaq, bölgədə ədavətə son qoyulacaq, xoşməramlı təşəbbüslər həyata keçiriləcək, işğalçılıq siyasəti bitəcək və insanlar təhlükəsiz, firavan həyat sürmək imkanı qazanacaqlar", - deyə hərbi jurnalist bildirib.

# Polkovnik: “Şərti sərhəddə artan təxribatlar Ermənistan üçün yaxşı heç nə vəd etmir”

Vətən müharibəsi göstərdi ki, Azərbaycan heç bir hədəyə boyun əyməyəcək qədər güclüdür.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri istefada olan polkovnik Cəlil Xəlilov söyləyib.

İstefada olan polkovnik qeyd edib ki, erməni vəhşilikləri fonunda Azərbaycanın qazandığı ləyaqətli Qələbə dövlətimizin və xalqımızın qüdrətini göstərir: "Məlum olduğu kimi, Ermənistanın 30 illik işğalı davam etdirmək cəhdi, təmas xəttində həyata keçirdiyi silsilə təxribatlar 2020-ci il sentyabrın 27-də Azərbaycanı erməni işğalına hərbi yolla son qoymaq məcburiyyəti qarşısında qoydu. Müharibənin ilk günlərində erməni separatçıları Azərbaycanın ünvanına hədələr səsləndirir, enerji infrastrukturumuzu, şəhərlərimizi sıradan çıxartmaqla, yeni ərazilər işğal etməklə hədələyirdi. İş o yerə çatmışdı ki, separatçılar erməni tanklarının Bakı küçələrindəki paradda iştirak edəcəyini deyirdilər. Lakin Vətən müharibəsi sübut etdi ki, Azərbaycanın cəsarəti və gücü hər cür təhdid və zorakılıqdan daha böyükdür. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində düşmənin hərbi potensialının 80 faizini məhv etməklə ona ağır zərbə vurdu, işğaldakı torpaqlarımızın azadlığı təmin olundu. Dövlətimiz Bakıya gələcəklərini deyən separatçıların da "arzusunu reallaşdırdı". Separatçıların özləri həbsxanaya, tankları isə Hərbi Qənimətlər Parkına gətirildi. Bu fakt bir daha sübut etdi ki, Azərbaycan, həqiqətən də, öz təhlükəsizliyini, ərazi bütövlüyünü, suverenliyini qorumağa qadirdir və heç bir güc ona bu yolda mane ola bilməz".

İstefada olan polkovnik Cəlil Xəlilov son vaxtlar şərti sərhəddə artan təxribatların da Ermənistan üçün yaxşı heç nə vəd etmədiyini bildirib: "Son vaxtlar biz Ermənistanın Azərbaycanla şərti sərhəddə müxtəlif təxribatlar həyata keçirməyə çalışdığına şahid oluruq. Fransa, ABŞ, Hindistan və digər güclər tərəfindən qızışdırılan Ermənistan bununla bölgədə vəziyyəti yenidən gərginləşdirməyə çalışır. Lakin İrəvan bilməlidir ki, yeni bir qarşıdurma Ermənistan üçün yalnız və yalnız yeni bir məğlubiyyət vəd edir. Yeni bir məğlubiyyət isə bir dövlət kimi Ermənistanın sonu ola bilər".

## Fiziki hazırlıq

# “Əsgəri güclü olan ordu yenilməzdir”



*Ordunun gücü, qüdrəti əsgərin döyüş hazırlığı deməkdi. Yüksək döyüş hazırlığına malik ordu dövlətin sərhədlərini də qətiyyətlə qoruyur, dövlətçiliyini də, suverenliyini də, milli-mənəvi dəyərlərini də. Buna həm də şəxsi həyatin yüksək fiziki hazırlığı ilə nail olunur.*

Azərbaycan əsgərinin döyüş hazırlığı müxtəlif üsullarla yüksəldilir: hərbi biliklər öyrədilir, öyrədilənlər təlimlərlə möhkəmləndirilir, təkmilləşdirilir, formalaşdırılır. Fiziki hazırlığı zəif olan əsgərin döyüş hazırlığını yüksək səviyyəyə çatdırmaq çətinliklər yaradır. Ona görə də müdafiə nazirinin təsdiq etdiyi günün nizam qaydalarına müvafiq olaraq hərbi hissələrdə fiziki hazırlıq üzrə məşğələlər aparılır, bu məqsədlə hərbi hissələrdə idman şəhərcikləri yaradılıb. Günün nizam qaydalarına müvafiq olaraq, planlı dərslər - idman saatları da keçirilir, hərbi hissədə idman yarışları da təşkil edilir, uğur qazanan əsgərlər birləşmə üzrə keçirilən yarışlara göndərilirlər.

Fiziki hazırlıq da plan əsasında təlimata müvafiq aparılır. Əsgərin fiziki imkanlarını artıran, bu baxımdan onun döyüş hazırlığını yüksəldən fiziki hazırlıq döyüş hazırlığı prosesinin mühüm tərkib hissələrindəndir. Fiziki hazırlığı yüksək olan əsgərin dözümlülüyü də yüksək olur, hərbi bilikləri öyrənmə istəyi də dönməzləşir. Yüksək fiziki imkanlar mətin xarakter formalaşdırmağa da qadirdi.

Əsgərin fiziki imkanları müxtəlif təyinatlı idman qurğuları vasitəsilə tənzimlənir.

Əsgər Nurlan Məlikov hərbi xidmətə Sumqayıt şəhərindən çağırılıb. İdmanla uşaqlıq illərindən məşğul olur. İdmanın boks növünü sevib, sirlərini öyrənib. Nurlan dedi ki, idman ən əvvəl yeniyetmənin, gəncin fiziki imkanlarını artırır, sonra məşqlərlə sevdiyi idman növünün sirlərini mənimsəyir. Orta məktəbdə oxuyanda öz çəki dərəcəsində respublika üçüncüsü, sonra respublika ikincisi olmuş əsgər dedi ki, hərbi hissədə yaradılan yüksək şərait idman fəaliyyətini davam etdirməyə imkan verir, həm də asudə vaxtlarda boksa həvəsi olanlarla da birgə məşq edirik. Bildiklərimi onlara da öyrədirəm.

Əsgər Namiq Behbudov yeniyetməliyindən idmanın sərbəst güləş növü ilə məşğul olub. Yeniyetmələr arasında respublika birinciliyinin gümüş mükafatçısı olub. Ata yurdu Ağdamın Baş Qərvənd kəndindədir. Əsgər dedi ki, bu gün turniklərlə, paralel qollarla, yüngül atletika ilə fiziki gücünü artıran əsgərlərimiz həm də döyüş hazırlığını yüksəldir. Bu, onların, elə hamımızın hərbi xidmətə məsuliyyəti deməkdir.



İdman təlimatçısı çavuş Nəbi İsmayılov dedi ki, İkinci Qarabağ müharibəsində döyüşçülərimiz döyüşə-döyüşə Şuşaya çatmışdılar. Şuşaya dağlardan aşıb gedəcəkdilər. Bunu ancaq yüksək fiziki hazırlığa malik olan döyüşçülər yerinə yetirə bilərdilər. Azərbaycan Ordusunun hissələri Şuşanın sıldırım dağlarını çıxıb şəhərə daxil olacaqdılar. Azərbaycan Ordusu bu möcüzə əməliyyatı gerçəkləşdirə bildi, Şuşanı işğaldan azad etdi. Mən vaxtaşırı əsgərlərimizə bu faktı da xatırladıram.

Əsgər Mahsun Abbasov maraqlı bir fikir bildirdi: “İkinci Qarabağ müharibəsində tarixi Zəfər həm də döyüşçülərimizin yüksək fiziki hazırlığı ilə qazanılıb. Ona görə biz döyüş yolunu davam etdirdiyimiz əsgərlərin xarakterinin də davamçısı olmalıyıq. Onların xarakterini həm də yüksək fiziki hazırlıqları formalaşdırmışdı. Yüksək fiziki hazırlıq bizim də xarakterimizi formalaşdırır”. Mahsun Abbasovun fikri əsgər yoldaşlarının baxışlarında bir məmnunluq yaratdı.

Fiziki hazırlıq da döyüş hazırlığı kimi hava şəraitindən asılı olmadan müntəzəm həyata keçirilir.

Əsgər Aqşin Xanəhmədov dedi ki, hərbi xidmətə başlayanda zəif fiziki göstəricilərə malik olan əsgər yoldaşlarımızdan biri bu üç ayda hamımızı heyrətləndirə bildi. İndi o, hamının diqqətini çəkən atletik qamətə malikdir. Soruşanlara "Buna müntəzəm fiziki məşqlərin hesabına nail oldum. Əgər vaxtdan düzgün istifadə edirsənsə, buna fiziki hazırlıq saatı da kifayət edər", - dedi. Bu cavabı hərbi xidmətdə fiziki hazırlıq düsturu adlandıra bilərik...

"Əsgəri güclü olan ordu yenilməzdir", - hərbi hissədə belə dedilər...

**Rəşid HÜSEYNOV**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

## Məişət

# “Əsgərlərimizə qulluq etməyi mənəvi borc bilirik”



*Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin tapşırıqlarına əsasən, ordu quruculuğu istiqamətində uğurlu islahatlar səngimir. Ordumuzun döyüş hazırlığı ilə yanaşı, təminatı, bölmələrin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məsələləri də daim diqqət mərkəzində saxlanılır. Çünki təminatı yüksək olan əsgərin döyüş ruhu da yüksək olur.*




Ordumuzun bütün bölmələrində olduğu kimi, "N" hərbi hissəsində də şəxsi heyətin sosial-məişət şəraiti yüksək səviyyədədir. Burada müasir standartlara cavab verən yeməkxana, yataqxana, camaşırxana ilə tanış olduq. Hər birinin şəraiti, təminatı, səliqə-sahmanı ürəkaçandır. Camaşırxananın iş prosesi ilə tanış olmaq üçün hərbi hissənin məsul zabiti ilə ora yollandıq. Buranın müasir avadanlıqlarla təchiz olunduğunu və işin tam avtomatlaşdırılmış qaydada aparıldığını gördük. Həmçinin çalışanların səliqəli geyimi və təmizliyi də göz oxşayırdı.

Çavuş Şəmistan Mehdiyev bildirdi ki, şəxsi heyətin təmizliyi daim ön plandadır. “Hamam günlərində bölmələr çirkli paltarları camaşırxanaya təhvil verir, onlar qısa müddətdə yuyulur və ütülənərək təmiz halda geri qaytarılır. Paltarlar saxlanc otaqlarında qorunur və hamam günlərində şəxsi heyətə paylanılır. Bu cür diqqət əsgərlərin xidmət keyfiyyətinə və ümumi sağlamlığına müsbət təsir göstərir”.

Camaşırxanada çalışan İlhamə Museyibova burada paltarların, dəsmalların və yataq dəstlərinin təmizlənməsi üçün müasir texnikanın quraşdırıldığını vurğuladı. "Bu cür şərait bizə işimizi daha rahat və sürətli şəkildə görməyə imkan verir. Təmiz və ütülü paltarlar əsgərin xidməti üçün əhəmiyyətlidir, biz də bu işə böyük sevgi ilə yanaşırıq. Hər bir hərbi qulluqçunu öz övladımız kimi qəbul edirik. Onlar bizə qələbə sevincini yaşatdılar. Belə mərd və cəsur oğullarımız olduğu üçün qürur duyuram", - deyə o bildirdi.

Gültəkin Məmmədova isə qeyd etdi ki, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirərək, əsgərləri təmiz və ütülənmiş yataq dəstləri və səliqəli geyimlə təmin edirlər. "Bu gün ordumuzun igidliyi sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa edildi. İllərlə düşmənin işğalından sonra azad edilmiş torpaqlarımızın hər qarışını bu gün Azərbaycan



əsgəri mətinliklə qoruyur. Biz də öz növbəmizdə qalib ordumuzun əsgərlərinə qulluq etməyi özümüzə mənəvi borc bilirik", - dedi Gültəkin Məmmədova.

Camaşırxana ilə yanaşı, digər məişət otaqlarının da şəraiti və təminatı ən yüksək səviyyədə idi. Burada çalışan işçilərin hərbi qulluqçularımıza doğma münasibət bəslədiyini, işlərinə ürəkdən bağlı olduqlarını gördük.

Bunların hamısı hərbi hissədə xidmətin düzgün təşkilindən, şəxsi heyətin sosial təminatının və mənəvi-psixoloji hazırlığının daim diqqətdə saxlanılmasından xəbər verir ki, bu da birbaşa döyüş hazırlığına təsir edir.

**Eltun MƏMMƏDOV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# Azərbaycanın ilk yerli lazer silahı





Azərbaycan mühəndisləri tərəfindən hazırlanmış bu silah 30 kilovat lazer gücünə və 900 kiloqram çəkiyə malikdir. "Fireforce" yüngül zirehli vasitələrə quraşdırılaraq, yüksək hərəkətlilik təklif edir və müasir döyüş meydanında mühüm texnologiya kimi diqqəti cəlb edir.

"Fireforce", xüsusilə aşağı qiymətə dəqiq müdaxilə təklif edən lazer silahı texnologiyasının ən qabaqcıl nümunələrindən biri kimi seçilir. 30 kilovatlıq lazer mənbəyi Pilotsuz Uçuş Aparatları (PUA), yüngül zirehli hədəflər və düşmənin radioelektron sistemləri kimi təhlükələrə qarşı effektiv həll yolu təklif edir.

Silah hədəfini qısa zamanda məhv etmək qabiliyyəti ilə sürətli reaksiya verir. Bundan əlavə, 900 kiloqramlıq yüngül quruluşu onu zirehli vasitələrə inteqrasiya etməyə imkan verir və bu, sahədə geniş istifadə imkanları yaradır. "Fireforce" müasir döyüş şəraitində istifadəsinə bir çox strateji üstünlüklər təqdim edir. İlk növbədə, yönləndirilmiş enerji silahı olması sursat istifadəsini lazımsız edir və əməliyyat xərclərini azaldır.

Eyni zamanda, hədəfin aşkar edilməsindən məhvetməyə qədər keçən müddəti olduqca qısaldaraq, sürətli və effektiv müdaxilələr edilməsinə imkan yaradır. Radioelektron cihazlara və PUA-lara təzyiq göstərilməsi və ya onların məhv edilməsi xüsusilə hava sahəsində düşmənin üstünlüyünü qırmaqda kritik rol oynaya bilir. "Fireforce"un Azərbaycan Silahlı Qüvvələrinə verəcəyi töhfələr olduqca genişdir. Silah sərhəd təhlükəsizliyini artırmaqla yanaşı, qarşıdurma anlarında PUA-lara qarşı müdafiəni təmin etmək qabiliyyəti ilə ön plana çıxır.

Lazer silahlarının xüsusilə aşağı xərcli və davamlı olaraq istifadə edilə bilən olması geniş çərçivədə xərc baxımından sərfəli qoruma təmin edir. "Fireforce" Azərbaycanın müdafiə sənayesindəki yerli istehsal qabiliyyətini artıraraq, xaricdən asılılığı azaltma hədəfini də dəstəkləyir. "Fireforce" xüsusilə hava təhdidlərinə qarşı bir müdafiə sistemi olaraq dizayn edilsə də, yüngül zirehli vasitələrə qarşı da effektiv şəkildə tətbiq oluna bilər.

Azərbaycanın "Fireforce" sistemi Türkiyənin yerli lazer silahı sistemi olan ROKETSAN-ın "Alka" sistemi ilə müqayisə edildikdə oxşar missiya təriflərinə sahib olduğu görünür. Ancaq "Alka" həm lazer, həm də elektromaqnit qarışdırma qabiliyyətlərinə malik hibrid sistem olaraq xüsusilə radioelektron mübarizə imkanları ilə seçilir.

"Alka"nın 50 kilovata qədər lazer gücü "Fireforce"un gücündən yüksək olsa da, "Fireforce"un yüngül strukturu və yığcam ölçüləri daha mobil həll təklif edir. Azərbaycanın "Fireforce" lazer silahı müdafiə texnologiyaları sahəsində yerli və milli layihələrə inamı artırır, xüsusilə bu sahədə təqdim etdiyi ucuz və yüksək effektiv həllər ilə Azərbaycan Silahlı Qüvvələri üçün mühüm güc multiplikatoru olacağı düşünülür.

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

# İdman

### "Böyük Dəbilqə": Azərbaycan cüdoçusu qızıl medal qazanıb



Azərbaycan cüdoçusu Zelim Tçkayev Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən "Böyük Dəbilqə" turnirində qızıl medal qazanıb.

81 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı finalda Gürcüstan təmsilçisi Zaur Dvalaşvilini məğlub edib.

73 kiloqramda çıxış edən Rəşid Məmmədəliyev isə bürünc medal uğrunda qarşılaşmada yaponiyalı Tatsuki İşihara ilə bacarmayıb.

Bununla da Azərbaycan millisi "Böyük Dəbilqə"nin ikinci gününü 1 medalla başa vurublar.

Qeyd edək ki, yarışın ilk günündə Azərbaycanın qadın cüdoçusu Acelya Toprak (57 kiloqram) bürünc medal qazanıb.

### Azərbaycan badmintonçusu Türkiyədə qızıl medal qazanıb



Azərbaycan badmintonçusu Keişa Fatimə Zəhra Türkiyənin İstanbul şəhərində keçirilən "International Challenge" seriyalı beynəlxalq turnirdə qızıl medal qazanıb.

Mübarizəyə 1/16 finaldan başlayan Keişa qadın idmançıların şəxsi yarışında finala gedən yolda Danimarka, Ukrayna və Fransa təmsilçilərini üstələyib.

O, qızıl medal uğrunda keçirilən həlledici final qarşılaşmasında danimarkalı Amalie Sçulzanı hər iki setdə böyük fərqlə məğlub edərək turnirinin qalibi olub - 21:11, 21:9.

### Azərbaycan ikinci dəfə cüdo üzrə dünya çempionatına ev sahibliyi edəcək



Azərbaycan 2026-cı ildə cüdo üzrə dünya çempionatına ev sahibliyi edəcək.

Bu barədə Beynəlxalq Cüdo Federasiyası və Azərbaycan Cüdo Federasiyası arasında müvafiq razılıq əldə olunub.

Bununla da "Los-Anceles-2028" Yay Olimpiya Oyunlarına cüdo üzrə lisenziya yarışlarına Bakıda keçiriləcək mundialla start veriləcək.

Azərbaycan daha əvvəl 2018-ci ildə cüdo üzrə dünya çempionatını qəbul edib.

2026-cı ilin iyun ayında Azərbaycan yenidən cüdo dünyasının mərkəzinə çevriləcək və mundiala ev sahibliyi edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə tezliklə 40 ədəd "Eurofighter" qırıcıları alacaq



Türkiyə tezliklə 40 ədəd "Eurofighter" qırıcı təyyarələri alacaq.

"Milliyet" qəzeti xəbər verir ki, hərbi texnika sövdələşməsinə ən son maneə "Eurofighter" konsorsiumuna daxil olan Almaniyanın mövqeyi olsa da, Berlin artıq Türkiyəyə təyyarələrin tədarükünə ilkin razılıq verib.

İtaliya, İspaniya və Böyük Britaniyanın təmsil etdiyi konsorsiumun qalan üzvləri daha əvvəl Ankara ilə bu sahədə əməkdaşlıq ideyasını bəyənib.

Nəşrin məlumatına görə, "Eurofighter" konsorsiumunun nümayəndə heyəti bu həftə Ankaraya gəlib və orada sövdələşmənin texniki parametrlərini, o cümlədən pilotların hazırlığı və qırıcılara texniki xidmət göstərilməsi məsələlərini müzakirə etməyə başlayıb.

Qəzet rəsmi Ankaranın NATO tərəfdaşları tərəfindən müdafiə sektorunda məhdudiyyətlərin yolverilməzliyi ilə bağlı bəyanatlarını xatırladır.

"Milliyet" qeyd edib: "Eurofighter" müqaviləsinin üstünlüklərindən biri Avropa istehsalı olan qırıcı təyyarələrin Amerikanın "F16 Blok 70" analoqundan əvvəl Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil edilə bilməsidir. Bütün bunlar Türkiyə Hərbi Hava Qüvvələri donanmasının sürətlə modernləşdirilməsinə kömək edir".

### Çin ordusu Tayvan ətrafında təlimlər keçirib



Çin Xalq Azadlıq Ordusu (ÇXAO) Tayvan ətrafında "Birgə qılınc - 2024B" təlimləri keçirib.

Bu barədə Çin Xalq Azadlıq Ordusunun Şərq Bölgəsi Döyüş Komandanlığının rəsmi nümayəndəsi, baş polkovnik Li Si açıqlama verib. Təlimdə quru qoşunları, donanma, hava qüvvələri, raket qüvvələri və digər qoşunlar iştirak edib. Qeyd olunub ki, təlimlər Tayvan boğazında Tayvanın şimal, cənub və şərq hissəsində baş tutub. Təlimlər zamanı birgə hücumun məşq edilməsi, adanın liman və ərazilərinin bloklanması və nəzarətə götürülməsi planlaşdırılıb.

### Rusiya raket və kamikadze dronlarla Ukraynaya hücum edib



Oktyabrın 13-nə keçən gecə Rusiya raket və kamikadze dronlarla Ukraynaya hücum edib. Hava hücumundan müdafiə qüvvələri bütün hədəfləri məhv etməyib.

Ukrayna Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələri məlumat yayıb.

Həmin gecə Rusiya ordusu Kursk vilayətindən və Krımdan iki "İsgəndər-M" ballistik raketi, Kursk vilayətinin hava məkanından isə Çerniqov və Sumı rayonlarında iki ədəd "X-59" idarə olunan aviasiya raketi ilə Poltava və Odessa vilayətlərinə hücum edib. Rusiya tərəfi, həmçinin 68 pilotsuz uçan aparatı buraxıb. Məlumata görə, HHM qüvvələri Kiyev, Poltava, Çerniqov, Sumı və Çerkassı vilayətlərində 31 pilotsuz uçuş aparatını zərərsizləşdirib.

### Litvada ABŞ, Britaniya və Polşa hərbçilərinin iştirakı ilə təlimlər başlanır



Litvanın Şvençyon rayonundakı poliqonda "Samogitia" piyada briqadasının təşkilatçılığı ilə "Güclü Qrifon 2024" beynəlxalq təlimləri başlanır.

Təlimlərə ABŞ, Böyük Britaniya və Polşadan 2,5 mindən çox hərbçi və təxminən 250 texnika cəlb olunacaq.

Litva Silahlı Qüvvələrindən verilən məlumata görə, hər il keçirilən təlimin məqsədi "Samogitia" briqadasına müttəfiq bölmələrlə əməkdaşlıq şəraitində əməliyyatları planlamaq və həyata keçirməyi aşılamaqdır.

Təlim çərçivəsində Klaypeda-Kazlu-Ruda, oktyabrın 20-də isə Kazlu-Ruda-Pabrade marşrutu ilə hərbi texnikanın intensiv hərəkəti planlaşdırılır.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 638
Nüsxə 4650